XX əsrin bəlası - Deportasiya

# Qərbi Azərbaycana qayıdış tarixi haqqımızdır

**Əzəli və əbədi yurd yerimiz olan Qərbi Azərbaycana qayıdışımız qüdrətli Azərbaycan dövlətinin əsas hədəflərindən biridir. Doğma el-obasından didərgin düşmüş soydaşlarımız artıq uzun illərdir ki, Vətən həsrəti ilə qayıdacaqları günü səbirsizliklə gözləyir. Əfsuslar olsun ki, tarix boyu yüz minlərlə insan erməni qəsbkarlığının qurbanı olmuş, ləyaqəti tapdalanmışdır. Lakin 44 günlük Vətən müharibəsi və 23 saatlıq antiterror tədbiri bir daha göstərdi ki, Azərbaycan haqq işinin sonacan arxasında durur, tarixi ədaləti bərpa edir.**

Prezident cənab İlham Əliyevin uzaqgörən siyasəti və qətiyyətli liderliyi, müzəffər ordumuzun misli görünməmiş qəhrəmanlığı nəticəsində işğaldan azad edilmiş ərazilərimizdə müqəddəs üçrəngli bayrağımız qürurla dalğalanır. Məhz Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etməsindən sonra Qərbi Azərbaycandan olan soydaşlarımızın da vaxtilə didərgin salındıqları ata-baba yurdlarına qayıdacağına inamları artıb. Prezident cənab İlham Əliyev hələ 2020-ci il 3 iyun tarixində bu barədə danışarkən bildirmişdi: "Mən deyəndə ki, İrəvan bizim qədim torpağımızdır, tam həqiqəti deyirəm. Bunu hər kəs bilir. Əgər belə olmasaydı, Azərbaycan Xalq Cümhuriyyəti nə üçün qərar qəbul edib ki, İrəvanı Ermənistana versin, bağışlasın. Özü də nə vaxt? Müstəqillik elan olunandan bir gün sonra. Özü də yekdilliklə yox. Bu qərarın əleyhinə çıxanlar da olubdur, amma onların rəyi nəzərə alınmayıb. Bunu unutmaq olmaz və bunu bağışlamaq da olmaz...".

Xüsusi vurğulanmalıdır ki, 2022-ci il dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan icmasının inzibati binasında bir qrup ziyalılarla görüşü əzəli yurd yerimizə qayıtmaq əzmini daha da gücləndirdi. Həmin tarixi tədbirdə dövlət başçısı ermənilərin deportasiyaya məruz qoyduqları insanların öz ata-baba torpaqlarına qayıdışının reallaşacağını bəyan etdi.

Cənab Prezidentin bildirdiyi kimi, əgər kimsə hesab edirdi ki, 1918-ci ildə İrəvanı Ermənistana verməklə biz hansısa daha böyük bəlalardan özümüzü sığortalamış ola bilərdik, bax Zəngəzurun Ermənistana verilməsi bir daha onu göstərir ki, bu, çox yanlış, səhv addım idi və dediyim kimi xəyanət idi. Əfsuslar olsun ki, Azərbaycanın İrəvanı Ermənistana verməsi minlərlər soydaşımızın 1948-1953-cü illərdə indiki Ermənistan ərazisindən deportasiyası ilə nəticələndi. Ümumiyyətlə, 1905-1906, 1918-1921, 1948-1953 və 1988-1991-ci illərdə xalqımıza qarşı mərhələli şəkildə deportasiya və soyqırımları həyata keçirilib. Bəşəri cinayət əməli hesab edilən bu terror aktı - deportasiya siyasəti tarixi-mədəni irsimizin məhvinə səbəb oldu. Abidələrimiz dağıdıldı, qədim Azərbaycan toponimləri saxta və uydurma adlarla dəyişdirildi. Bütün dünyanın gözü qarşısında monoetnik dövlət və etnik təmizləmə siyasəti haylar tərəfindən tətbiq edildi.

Qeyd edək ki, 1969-1980-ci illərdə - Ümummilli Lider Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə bu insanlıq əleyhinə baş verən cinayətin davam etməsinin qarşısı alınaraq xalqımız növbəti deportasiya və etnik təmizləmədən qorunmuşdur. Lakin daha sonra 1987-ci ildə Ulu Öndərin keçmiş Sovetlər Birliyinin rəhbərliyindən getməsi ermənilər üçün növbəti cinayətlər üçün şərait yaratdı. Belə ki, 1988-1991-ci illərdə azərbaycanlıların Ermənistandan deportasiyasının sonuncu və ən dəhşətli mərhələsi həyata keçirildi. Məlumat üçün bildirək ki, həmin dövrdə Ermənistanda 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdı, 90-a yaxın kənddə, eləcə də böyük şəhərlərdə azərbaycanlılar əksəriyyət təşkil edirdilər. Məhz 3 il ərzində misli görünməmiş təcavüzə və vəhşiliyə məruz qalan soydaşlarımız yurd yerlərindən didərgin salınıblar.

Qərbi Azərbaycan İcması yurd yerlərimizə qayıdış üçün soydaşlarımız arasında və beynəlxalq təşkilatlar əsaslı işlər görür. Belə ki, Böyük Qayıdış Konsepsiyasının ərsəyə gətirilməsi bu çərçivədə əsaslı tədbirlər görüldüyünün sübutudur. Qərbi Azərbaycana Qayıdış Konsepsiyası böyük əhəmiyyətə malikdir. Qərbi Azərbaycan İcmasının təsis etdiyi Konsepsiya soydaşlarımızın qayıdışının reallaşmasının və bu sahədə fəaliyyətin əsas istiqamətlərini müəyyən edən sənəddir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir. Qərbi Azərbaycan İcmasının hazırladığı Konsepsiya hər kəsə mesaj verir ki, sülh yolu və beynəlxalq hüquq, beynəlxalq təcrübələrdən istifadə edərək, tarixi Azərbaycan torpaqlarında doğulub, yaşamış, etnik təmizləməyə, soyqırımına, deportasiyalara məruz qalmış minlərlə soydaşımızın itirilmiş hüquqları bərpa edilməlidir. Yeri gəlmişkən, Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyinin Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasını BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayması onu göstərir ki, artıq beynəlxalq aləmdə də bu məsələyə xüsusi qiymət verilir. Bununla yanaşı, Konsepsiya BMT-nin ən mötəbər orqanlarının gündəliyində yer alır. Bütün bunlar soydaşlarımızın sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə geri qayıtmaq istiqamətində apardığımız fəaliyyəti davam etdirməyə daha da ruhlandırır.

Xatırladaq ki, 21 iyun tarixində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış" festival-konqresi öz işinə başladı. Qədim yurd yerimiz olan Qərbi Azərbaycan torpaqlarında xalqımızın min illərlə formalaşdırdığı və yaşatdığı mədəniyyəti təbliğ etməklə yanaşı, əzəli yurd yerinə qayıdış prosesinə elm və təhsil ictimaiyyətinin dəstəyini ifadə etmək məqsədi daşıyan konqresdə ölkənin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, həmçinin Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçılar bir araya gəldilər.

Bununla yanaşı, Qərbi Azərbaycan İcmasının fəaliyyəti olduqca intensivdir. Haqq səsimizin bütün dünyada eşidilməsi üçün əsaslı işlər görən İcma üçün hər cür şərait yaradılıb. Məhz mayın 1-də Qərbi Azərbaycan İcmasının tərkibində fəaliyyət göstərən Qərbi Azərbaycan Televiziyasının binasının açılışı bir daha deyilənləri təsdiq edir. Digər tərəfdən, gənclərə Qərbi Azərbaycan həqiqətlərinin çatdırılması üçün əsaslı işlər görülür. İyunun 21-də Naxçıvanda keçirilən festival-konqres çərçivəsində "Qərbi Azərbaycana qayıdış" olimpiadasının qaliblərinin mükafatlandırılması, onlara göstərilən qayğı və diqqət insanların maariflənməsinə xidmət edir.

Bu tarixi amalı reallaşdırmaqda Prezident İlham Əliyevin, bütün Azərbaycan xalqının dəstəyi bu gün özünü tam göstərir. Qərbi Azərbaycana qayıdışımızda həmrəy olan Azərbaycan bu məqsədə də nail olacaqdır.

**Nurlan ABDALOV,**
**"Respublika".**